# GÖY ADAMI

Dünyanı öz sevgiləri ilə hifz edən mələklərdi şairlər. Həyat ən böyük sınaqdır. Gərək elə yaşayasan ki,gərəkli ömründə insanlara xeyirxahlıq duyğuları bəxş edib hər yerdə xoş soraqla yadda qalasan. Ömür acılı-şirinli, arzulu-istəkli, qayğılı-ümidli. Buna təsadüfən alın yazısı demirlər. Bu illərdə səssiz-səmirsiz addımlayan bir ürəyin döyüntüləri, arzu-diləyi var. Bu gün mələk xislətli bir Xanımdan -Qalya Quliyevanın yaradıcılıq sferasından bəhs etmək istəyirəm. Əslən Goranboy rayonundandır. Ağdam rayonunun Malbəyli kəndində 45 il müəllimə işləmiş, qabaqcıl iş təcrübəsi, layihələri, savadı, ziyası ilə seçilən, böyük hörmətə sahib olan pedaqoqlardan olub. Bədii yaradıcıllığa tələbəlik illərindən Azəri Soy təxəllüsü ilə başlayıb. "Göy adamı" publisist şairənin ilk kitabıdır. Poetikasında olan rəngarəng şeirlərinə tanınmış ziyalılar da fikir söyləmişlər. Mən də yazımı bu aspektən paralel olaraq aparmaq fikrindəyəm. Qalya xanımın poetik cizgilərində müdriklik,nikbinlik,bitkinlik çox dərindir. Söz düzümü həyatın fəlsəfəsi,bir könül toxunuşudur.

*Kərəminə qurban olum, ay Allah,*
*Nə gözəl yaratdın qoca-dünyanı,*
*Yerləri döşədin bir xalı kimi,*
*Tavanı göylərdən uca dünyanı.*

"Dünyanı" şeiri yaxşını-yaxşı, pisini-pis, qarışqadan böyük filin, yerə dirək olan dağların, gündüzə çıraq olan günəşin Allahıma bir sitayış nəğməsidir. Atalar sözü və məsəllər şeirə daha gözəl bəzək verir.

*Yaxşı da yaratdın,pis də yaratdın,*
*Əyri də yaratdın, düz də yaratdın.*
*Qarışqadan böyük fil də yaratdın,*
*Nə yaxşı yaratdın qoca dünyanı.*

Şairə xanımın şeirlərində həssaslıq,nikbinlik,özünü ifadə etmək bacarığı çox güclüdür. Tələbə yoldaşımız, şair, publisist filosof Tahir müəllim İmanov Qalya Quliyeva haqqında demişdir: "Azəri Soy:- bu ad geniş oxucu kütləsinə tanış olmasa da, onu tanıyanların baxış bucağında qəlbi poeziya inciləri ilə dolu olan bir insan gözlər önünə gətirilir. O poetik duyğuları Azəri Soy bəzən şeirə gətirir,-çoxunu isə hələlik qəlbinin şeiriyyət kürəsində bişirib, yetişdirib, sonra bizimlə bölüşmək istəyir. Ona görə yazmadıqları yazdıqlarından daha çox və ürək sandıqçasındadır, güman edirik ki, o poeziya nümunələri bir gün biz oxucuların olacaq. Azəri Soy çox savadlı, duyğusal, emosional yeri gəldikcə çox ciddi bir müəllimdir. Müəllim olmaqdan öncə, gözəl insan, yumorlu danışığa malik,müdrik və sadə bir adam. Vətənini canindan çox sevmək onun vicdanından və müəllim əxlaqından irəli gəlir və çoxlarına örnək ola bilər. Bu keyfiyyətləri onun yazılarında açıq- aydın görmək olur. Yalançı pafosdan, qafiyəpərdazlıqdan uzaq, sadə və səmimi şeirlərini oxuyanda, onun ürəyini,demək istədiyi çox böyük və dərin mətləbləri görürsən, anlamaq istəyirsən. Anlamaq istəyirsən ki, bu və ya digər səbəbdən indiyə qədər az şeir yazıb,amma qəlbi,ürəyi yazıb- yaratmaq eşqi ilə çırpınır. Özünün də etiraf etdiyi kimi ürəyindəki od- alovu elə ürəyinin istədiyi formada bəzən poeziyaya çevirə bilmir. Amma oxucu kimi deyim: daxilindəki söz partlayışları o qədər güclüdür ki, bir gün bu reallaşıb üzə çıxacaq və oxucuları sevindirəcək. Bu yazını bilirsiz niyə yazıram: - "mən şairlik iddiasında deyiləm, amma ürəyim doludur", - Azəri Soyun bu etirafı məni bu sətirləri yazmağa məcbur edir. Onda əsl şair ruhu yatır,bunu hiss eləməmək mümkünsüz,həm də o qədər vətənpərvər və müdrikliklə yoğrulmuş bir insandır ki, onun humanizmi qarşısında susmaq da qeyri-mümkün. Bir dahinin dediyi kimi; - POEZİYA HİSLƏRİN OYNADIĞI, ağılın süsləndirdiyi ecazkar bir oyundur. Azəri Soya arzu edək ki, hər zaman bizi bu ecaza qonaq etsin, poeziyanın fərqlənən isimlərindən birinə çevrilsin. Azəri Soy (Qalya müəllimə), nə yaxşı ki, dostumuzsan. Və sizi Qalya xanımın şeirlərini özünüz oxuyub dəyərləndirməyə dəvət edirəm. Sözsüz, peşəkarlıq baxımından mübahisə predmeti olacaq şeir nümunələri var, bu da ondan irəli gəlir ki, qələmi uzun müddət susmuş. Bəlkə deə, tale belə bir məqamı ona gözlətirmiş ki, daha mükəmməl şeiriyyət tablosu ilə oxucuların görüşünə gəlsin".

Qalya Xanım duyğulu və kövrəldici hisslərlə yoğrulan simulyativ harmoniyasını bəşəri varlıq olan məhəbbətini dilə gətirir.

*Dedim niyə belə qəmlisən,*
*Dedi ürəyindən soruş onu sən.*
*Dedim hər yan gözəl,gülür təbiət,*
*Dedi gözlərimdən onu soruş sən.*

Sevgi mövzusunda yazılan bu şeir dialoq şəklində verilmişdir. Bura paklıq, saflıq, vəfa, sədaqət, etibar, məsumluq, məlahət, incəlik və. s mənəvi keyfiyyətlər daxildir.

*Dedim üstünə get əsən yellərin,*
*Çaxan şimşəklərin,axan sellərin,*
*Sevinsin ürəyin,açsın dillərin,*
*Dedi sevənlərdən onu soruş sən.*

Qəmliyini ürəyindən soruşan özü ilə dil tapa bilməyib acılara alışıb yanan, dünyanın işini tufanlardan soruğulayan Qalya xanım sözlərinin hakimidir. Sözə qənaət, az sözlə fikir ifadə etmək sənətinin gözəl xüsusiyyətlərindəndir.

*Nə tez yaddan çıxdı vərdiyin vədlər,*
*Sevgiyə qoyuldu nə yaman sədlər.*
*Çəkildi aradan qanlı sərhədlər,*
*Sən məni yamanca seçmişdin axı.*

Burada hiss zənginliyi qədər fikir zənginliyi də vəhdət şəklində bir-birini tamamlayan obrazlı təfəkkürün məhsuludur. Sevmişdin axı "Məhəbbəti,sevdası bitmiş birinin uğursuz etiraflarıdır. Möhkəm bağların qırılması, verilən vədlərin puçluğu, alışıb yanan ürəyin peşmanlıq hisslərindən qaralanan poetik misralara bir nəzər yetirək:

*Məni bəyənmədin,özgəyə uydun?*
*Bir təmiz sevgini yarımçıq qoydun.*
*Soydun bu qəlbimi,soğantək soydun*
*Sən məni yamanca sevmişdin axı.*

"Xallı qız" şeirində daha maraqlı xalları müşahidə edirik. Yanağı dağlaləsi,dodağı ballı qızı Allahın bəlası adlandırır. Onu göy cisimləri, həyat hadisələri ilə müqayisə edir. Şeir dilli-dilavər,xoş avazlı,ismətdə Nigar timsallı olan tələbə yoldaşımız Tamara Bədəlovaya ünvanlanıb:

*Səs salıbsan aləmə yaman canlar alırsan,*
*Ay Allahın bəlası,yanaqları xallı qız.*
*Göydə bulud sanmısan,dumanmısan,çənmisən,*
*Şimşək kimi çaxırsan bir mələk timsallı qız.*

"Var mənim" şeirində yeri-göyü,-vətəni,torpaqlarını sevən bir qəlbin sevgi dolu sözlərini eşidirik. Şairə xanım bu dünyada sevənlərə məhəbbətim var mənim söyləyir.

*Yaranmışam,haqdan gələn xərrəyən.*
*Ha çağıram, ha söyləyəm, ha deyəm,*
*Hey səslənən sevgi dolu nəğməyəm*
*Yaradana sədaqətim var mənim.*

Hörmətli insan, adına və şəxsiyyətinə dəyər verdiyimiz, elmi zəkası ilə tanınan Hidayət müəllim Azəri Soy haqqında demişdir:"Əziz bacım,-yəqin ki,səni də, məni də bu insanlara, yaradıcı sənətkarlarla birləşdirən bir ortaq məxrəc var. O da icimizdə sözə, sənətə,insanlığa, incəsənətimizə olan sevgini duymaq,hiss etmək,-dəyərləndirmək bacarığının olmasıdı. Qalya bacım, bunu hər adam bacarmaz təvazökarlıqdan uzaq olsa da..."

*Aldanma hər sözə aldanma üzə,*
*Qıyma sözlərin kimsəni üzə,*
*Yaşın yetmişdən, lap çıxsa yüzə,*
*Allahı yadına salsan yaxşıdır.*

Dinclikdən, kələkdən, hiylədən, yalandan, ikiüzlülükdən uzaq olmağı tövsiyə edən Qalya müəlliməninˮ-Yaxşıdır" şeirində pak əməllərdən, insani keyfiyyətlərdən bəhs olunmuşdur. Şeirdə fəlsəfi fikirlər daha aydın sezilir.

"İstəsən Rəbbinə olasan yaxın
Pərdəni üzündən alsan yaxşıdır".

Burada Həzrət Əlinin bu sözləri yada salaq: "Allahla mənim aramdan pərdə götürülsə,zərrə qədər dələlət olmaz" kimi hikmət dolu misralar şeirin bədii təsir gücünü daha mənalı, dolgun etmişdi...

*Yalandan gülmə,*
*Dilində yaşayıb, sözündə ölmə,*
*Gəl məni özünə sən düşmən bilmə,*
*Yaxşı dost yanında qalsan yaxşıdır.*

Qalyanın şeirlərində diqqəti cəlb edən cəhət zəngin və yetkin şeir texnikası və forma zənginliyidir. Şairə öz fikir və hisslərini poetik formada sərbəstliklə, zövqlə ifadə edə bilir. Onun şeirlərində həyatın ecazkar hüsnü, insan qəlbini riqqətə gətirən gözəlliklərin tərənnümü geniş yer tutur.

"Payız" şeirində fəsil gözəlliyini belə ifadə edir.

*Günəş yaşmaq altdan təzə gəlin tək*
*Boylanır qaşçəkib, göz oynadaraq.*
*Yaşıl çəmənlərdə sarı yarpaqlar.*
*Fəzada bax sən, ay ay Allah*
*Biri itir, biri bitir.*
*Demək həyat davam edir.*

Şairə xanım, filosof Sona Aslanova tələbə yoldaşı Qalya müəllimənin şeirləri haqqında belə demişdir: "Qalya duyğusal,kövrək,düşüncəli,düşündürməyi, güldürməyi bacaran, bir az nikbin, bir az bədbin notlarla köklənən şairə xanımdır. Şeirləri kövrəltdi məni. Düz deyirsən, biz gəncliyimizi görmədik, yaşamadıq. Allah sənə ömür versin. Çatmadığın arzularına,-yaşamadığın xəyallarına qovuşasan. Ömür qatarın gecikməsin".

*...Tutmursa xasiyyət,tutmursa ürək,*
*Havayı duz dadıb,kəsməyək çörək.*
*Dostun hər covrünə qatlaşıb gərək,*
*Olaq yaxşısına, pisinə meyil-*
*Bizim dost itirən vaxtımız deyil.*

Dost yolunda ikiqat əyilən,dünyanın əbədi məskən olmadığını deyən şairə dost itkisini ürək yanğısı ilə belə vəsf etmişdi.

Onsuzda qısadır,dönükdü ömür,
Tale bir deyəni həmişə demir,
Əsl dost yolunda iki qat əyil,
Bizim dost itirən vaxtımız deyil.

Məzun-78 qrupunun təşkilatçısı,dilçi alim, gözəl müəllim Hidayət Allahvərdi Qalya müəllimənin" Gəncliyə bir nəzər"," Görürəm", Ağlama göy üzü", "Sən də gəl", "Gülüm" kimi şeirlər haqqında təhlillər apraraq öz mülahizələrini vərmiş,poetik cizgilərini daha qabarıq göstərməyə müvəffəq olmuşdur. Gəlin, bu təhlillərə birgə nəzər salaq:

*Ah necə xoşbəxtdik, necə qayğısız*
*"Araz aşıqda, Kür topuqdaydı".*
*Həyat dərslərində, qovhaqovdaydıq*
*Dünya nə haydaydı,*
*biz nə haydaydaydıq.*

"Keçmişə ekskursiya edən müəllif həmin dövrün gəncliyini bir neçə frazeologizmlə xarakterizə edir. "Yerə sığışmayan, göylə gedən" gəncliyin "Araz işığında, Kür topuğunda" olduğundan fürsəti dəyərləndirmir. Yaxşı ki, fürsəti o zaman dəyərləndirməyən həmin gəncliyin ahıl çağları ağıllıdır,zamanın kifayət etməyəcəyindən təəssüflənir.

*Sabir ağlayırdı, Cəlil gülürdü*
*Füzuli ah çəkib,fəryad edirdi.*
*Eşqin göylərində var-gəl edirdi.*
*Hüqonu anlayan kim idi onda.*
*Deyirəm həmin yaş, bax həmin donda*
*Amma, bu başınız olaydı onda.*

Burada sadaladığımız ifadələrin misralara düzülüşü mahir zərgərin materiallardan ustalıqla istifadə etməsini xatırladır.

*Aldadır insan insanı,*
*Qalmayıbdır imam qanı,*
*Yolun azan bu cahanı*
*Yerlə yeksan görürəm.*

Yer üzünü,bəşəriyyəti hakimi şeytan görən Qalya Quliyeva bəşəriyyətin şeytana uymasını cox gözəl əxz etmişdir. Şeir tələbə yoldaşı Rövşən Atakişiyevin şeirinə cavab kimi yazılmışdır.

*Gəzirəm cölü-biyaban,*
*Oluram gözləri giryan,*
*Soyunub hamı da üryan,*
*Cin nədi, şeytan görürəm.*

Bir çox şeirlərində lirik ovqatın hakim olduğu Azərinin bu şeirində bəşər taleyindən narahatlıq duyulur. Şeirin başlanğıcında ətrafdakı çirkinliklərin səbəbini dəli şeytanda görən müəllif etiraza qalxmaq istəyəndə ədaləti bərqərar etməli olan hakimin də şeytan olduğunu görür.

Sonrakı bənddə hiss olunur ki, narahatlığın ən faciəvisi riyakarlıqdır:

*"Geyinibdi mələk donu,*
*Ovsunlayır onu, bunu,*
*Bu dünyanın yoxdu sonu,*
*Hər yanı zindan görürəm.*

Mələk donu geyib onu, bunu ovsunlayanların hərəkəti hər yanı zindana döndərib.

Şeirin sonuncu bəndi şeytana uymanın nəticəsi barədə (mədəniyyətin məhv olma fəlakəti) xəbərdarlıq edir.

Göy üzü şairlərin tez-tez müraciət etdikləri obyektdir. Ramiz Rövşən, Vaqif Bayatlı kimi göy üzünə müxtəlif fəlsəfi rakurslardan yanaşıb onu sirli, ilahi bir məkan-obyekt kimi obraza çevirən sənətkarlardan sonra Göy üzünə müraciət bir qədər cəsarət tələb etsə də, Azəri onu özündə tapıb. Göy üzünü kərəm sahibi, nur saçan, eyni zamanda qüdrət sahibi hesab etməklə yanaşı sanki ona "Ağlama, göy üzü, ağlama belə", - deyə müraciət etməklə könlünü almağa çalışır. Bu yalvarışlar Göy üzünün qüdrətini azaldırmış kimi görünsə də, sonrakı bənddə qarışan Yer üzündə yolunu azan bəndələrlə hesab çəkə biləcək qüvvə olduğunu yada salmaqla balansı düzəldir.

(Davamı 15-ci səhifədə)

# GÖY ADAMI

*(Əvvəli 14-cü səhifədə)*

*Dağılsın buludlar, göy üzü gülsün,*
*Ağlasa bir gözün, gülsün bir gözün,*
*Bitməsin heç zaman bizlərə sözün,*
*Ağlama, göy üzü, ağlama belə.*

Klassik qəzəllərdə, adətən, beytlərin sayı tək olur. Mən bilən. Müasir şairlər qəzəl janrına müraciət etməyə çox da cəsarət etmirlər.

*Nə yaman süslənibsən bu qədər nazilən, gülüm,*
*Bənzərin var belə bir saçı leylaya, gülüm.*

Azərinin "Gülüm" rədifli qəzəli onun dilinə görə dilçəyi də olduğu qənatinə gəlməyə əsas verir.

"Xəbərin yox, atəşin yandırır bu canım evin
Qoy dolanım başına, mən olum pərvanən, gülüm"- beyti uğurlu beyt hesab edilə bilər. Aşiq və məşuqun şam və pərvanəyə bənzədilməsi təbii şəkildə beytə oturub.

*Sel olub, Azəri, yaşın aparır dağı, daşı*
*Görənlər şükr eyləyir Məcnunu Leylaya, gülüm*

Bir az da sevgi. Lirik qəhrəmanın dəvəti yerinə düşür. Rəngarəng metaforlarla bəzədilən misralardakı gözəlliklərin: cənnət ətri çökmüş çəmənlər, köynəyini sökmüş qızılgüllər, budağını əymiş yasəmənlər, nəğmə deyən qumrular bir yana, Azərinin ürəyinin açılması xatirinə bu dəvətdən, çağırışdan imtina ən azı İNSAFSIZLIQ olardı. Bircə XARI BÜLBÜLÜN OXUMASI mənə çatmadı. "

*Qara gözlü, şirin sözlü dilbərim,*
*Demirəm ki, sən bizə çəndə gəl*
*Xarı bülbül oxuyanda çəməndə*
*Yaşıl donu gey əyninə, sən də gəl.*

"Şairlik sənətdir, həm də çətin sənətdir. Söz ən çətin hala gələn, üzə çıxarması məsuliyyət tələb edən, həmişə cilaya ehtiyacı olan xammal kimidir. Şeir dili və əlin yaratdığı möcüzə deyil. Şeir ürəyin, beynin möcüzəsidir. Qarşımda daxili hiss və həyəcanlarını kağıza köçürən, kağızı bəzəyən, süzləndirən müxtəlif üslub və janrlarda qələmə alınmış şeirləri oxuduqca müəllifinin böyük ürək sahibi olduğunu hiss etdim. Azəri Soy imzası söz arenamızda, çox da eşidilməyən isim olsa da, şeirlər məni silkəliyib,titrətdi. Qalya xanımın yaradıcılığında el qaynaqları saza sözə vurğunluq bir külliyatdır. Aşıq Zülfiyyəyə həsr olunan şeirinə diqqət yetirək:

*Götür telli sazını bu meydana gir,*
*Bu qəmli dastanı ellərə gətir.*
*Yazıq Azərini imana gətir.*
*Barmağın şəkərdi, bal ay Zülfiyyə*
*Yanıq Kərəmini çal,çal ay Zülfiyyə.*

Azeri Soyun qarşımda olan şerləri ənənəvi üslublardadır. Müəllifin klassik üslubda qələmə aldığı qəzəllər axıcılığı, seriyyəti və mövzu müxtəlifliyi ilə seçilir. Bəzi qəzəllərində Natəvan kədəri və tale üsyankarlığı hiss olunan da şairə nikbin ruhunu itirmir. Şairənin heca ülubu daha mükəmməldir.

Qoşmalar, gəraylılar, dördlüklərdə də mövzu rəngarəngliyi var və şairənin istedadını üzə çıxarır". Bu sözlər Azər Soyun şeirlərindən aldığı təəsürat poetikasıdır. Əslən Laçın rayonunun Güləbird kəndindən oldu neçə-neçə şeir kitabının müəllifi,şair,-publisist, I Qarabağ döyüşlərində komandir kimi böyük şücaətlər göstərən Rövşən müəllim Atakişi oğluna aiddir. Göydən Yerə tökülən nuru,pıçıldaşan gözəl-göyçək çəmənlər xəfif mehləri,qucaqlaşan budaqları görən Qalya xanımın ruhu coşur.

*Gördükcə mənzərəni*
*Ruhum coşur,köklüm əsir.*
*Əlimdəki qələmim də*
*Hey yazmağa tələsir.*

Qara gözlü, şirin sözlü dilbəri,çəmənzarlığı, güllü-çiçəkli bağçaya gətirən şairəmiz çox gözəl təbii boyalardan istifadə edib. Yaz günlərinin telini, çölü, çəmənin cənnət ətrini, qızıl gülün yasəmənlərin rayihəsini görəndə telli sazı götürüb. Sən də gəl-deyir.

*Qoy açılsın Azərinin ürəyi,*
*Tanrı olsun yurdumuzun köməyi.*
*Mən borc bildim güllü yazı öyməyi,*
*Çiçəkləri düz telinə sən də gəl.*

Qalya xanımın istedadı və qabiliyyəti yetkin şairədir. Şeirlərində forma,dil,üslub qüsursuzdur. Səliqəli və dəqiq ifadələrə,bənzətmələrə rast gəlirik. Poeziyasından estetik zövq alırıq. Onun şeirləri müfəssəl təhlil mövzusudur. Təbiət gözəlliklərini dərk edib,insanlardan ülvi keyfiyyətləri görmək nəcib qayələrin müvəffəqiyyətli ifadəsidir. O,həyata,insana,dünyaya,təbiətə baxışını poeziya dilinə çevirə bilir.



*Bağrı daşa dönüb,daşdı bu yollar,*
*Bilmirəm nə oldu çaşdı bu yollar.*
*Beşikdən qəbirə qaçdı bu yollar*
*Ağrısı canımın içindən keçər.*

Köksündən canından keçən yol adamı Qalya müəllimə "Keçər"şeirində gözəl canlandırmışdır.

Qalya müəllimə hər bir zaman həyatı bütün mürəkkəbliyi ilə dərk etməyə çalışır. Şeirlərində işıqlı və kölgəli cəhətləri qabarıq şəkildə göstərə bilir və zorgünümüzü oxşayan şeirdən kənar heç nə yoxdur. Hətta sıfırın özüdə,durğu işarələri də şeirin içindədir.

*Havada bir payız nəfəsi vardır.*
*Dilimdə qocalıq nəğməsi vardır.*
*Ocaqda sönməyən tüstüsü vardır,*
*Sən də alışmaya köz axtarırsan.*

Gülü-məxməri, ləli-gövhəri gəzən, işi-gücü, sözü qurtaran, həyatda kələfin ucun itirənlərə dözüm diləyir.

*Baş qarışıb məssəb itib,*
*Yaman qalıb,yaxşı gedib.*
*Kələfin ucu itib,*
*Bir az çözüm axtarırsan.*

Qalya xanım Laçın rayonunda gəzdiyi,gördüyü yerlərdən aldığı xoş təəssüratı bizimlə bölüşür. Torpaqlarımızın alınmasında tökülən qanları şəhidlərimizi,igid qəhrəman oğullarımızı yad edir:

*Şükür etdim Allaha milyon kərə,*
*Min rəhmət oxudum can şəhidlərə.*
*Sözönü göndərdim uca göylərə,*
*Bu günü ömrümə saydım Laçınım.*

Gecə yatmayıb Yaradanına,ay,ulduza,şırhaşır axan Həkəri çayına nurlu gecələrə kamandan çıxan yaya aid gözəl bənzətmələr vərərək Laçına olan məhəbbət dolu söz gülzarını bizlərə ərmağan etmişdi.

Qalya xanımın şeirlərində xatirə-memuar yazılar,ithaflar,nəzirələr üstünlük təşkil edir. Məzun-78 qrupunun üzvləri olan tələbə yoldaşlarından: N.Səməndərə, A.Rövşənə, İ.Tahirə,Nuriyyə xanıma, Solmaz müəlliməyə, Ə.Mehribana, A.Sonaya, B.Tamaraya həsr etdiyi poetik söz gülzarları öz məzmun və ifadə tərzinə, süjetinə görə daha maraqlıdır.

Qalya xanım insan həyatındakı gözəl rəgləri göstərməyi bacarır. Şeirlərindəki rəngarənglik, nikbin pafos daha səciyyəvidir. Yaradıcılığında həmişə adi hadisələri qələmə alır. Adilikdə qeyri-adilik axtarır. Qrup yoldaşımız şair,publisist, müharibə veteranı, dünyanın gərdişindən gileyli olan Rövşən Atakişioğlu kimi insanların əzmkar xarakterindən böyük əməllərindən söhbət açır.

*Necə illər Laçın deyib ağladı,*
*Sinəsinə yanar odlar bağladı.*
*Qaynar təbii hey qaynadı,çağladı,*
*Övladlara,nəvələrə dayaqdı,*
*Mürgüləyən şairimiz oyaqdı.*

Qalya xanımın yaradıcıllığında insanların dar gündə bir-birinə həyan,-dayaq olması, həssas və qayğıkeşliyi düşündürən əsas cəhətdir. O, təəssüratı həyəcanlı söhbəti, kiçik lövhəni daha gözəl boyalarla vərə bilir. Bu da onun qələminin sirridir.

*Vətən dərdi,yurd həsrəti yamandı,*
*Uzun illər el-obanız talandı.*
*Yada salmaq çətin olur amandı,*
*Qələmi ilə bu yollara mayakdı,*
*Mürgüləyən şairimiz oyadı.*

"İçimdə bir şair mürgüləyir" şeirində Qalya Quliyeva Rövşən müəlliməyə duyğularını belə poetik ifadələrlə bildirmişdir.

Azəri Soy qəlbi təlatümlü və narahat bir şairədir. Yaradıcılığında həyatın ecazkar hüsnü,insan qəlbini riqqətə gətirən gözəlliklər daha geniş yer tutur.

*Sən dağlar oğlu, dağ Vüqarlısan,*
*Vətənə layiqsən,etibarlısan.*
*Sən igid oğulsan, Vətən canlısan,*
*Sən Allah yıxılma,yıxılma qardaş.*

Vətənpər, el-obada böyük hörmətə malik söz sərrafı Məzun-78 qrupunun "komutanı"- şair, publisist, I Qarabağ döyüşlərində komandir kimi tanınan Səməndər Nəsibova həsr olunan bir şeirdir. Səhhəti ilə əlaqədar ağır cərrahiyyə əməliyyatına gedən zaman ona yazılan bacı ehtiramıdır.

Qalya xanım şeirlərindən birini də Həyat müəlliməyə həsr edib:

*Dəryamı deyim sənə,*
*Çəmənmi deyim sənə,*
*Çiçəkmi deyim sənə,*
*Ürəkmi deyim sənə,*
*Ay mənim ürək bacım,*
*Hər kəlməsi ləl-gövhər,*
*Həyatım, ipək bacım.*

Hiss və duyğuların mücəssiməsidirmi bu? Dost tapmaq çətindir. Tapandada böyük hörmət bəsləyib müqəddəsliyini dərk edən, onu poeziya dili ilə Qalya xanım kimi vəsf edəsən. Poeziyasında məfkurəli şeirlər yetərincədir. Şeir içdən gəlib əqidəyə, məsləkə çevriləndə möhkəm olur. Ömrü uzanır.

*Bir ana tanıdım,*
*Azəri döyüşlərdə,Şuşaya kimi.*
*Vuruşdu,çarpışdı,zəfərə kimi,*
*O isə yatmadı səhərə kimi,*

Yuxusu səngərlər içindən keçər.

Mətin, dözümlü, üzü nurlu, ürəyi təpərli, ağzı dualı, içində ağlayıb, gözündən gülən, göz yaşını ürəyinə salan, ağır təbiətli,imanlı-dinli bir qadına - Həyat Rüstəmzadəyə - onun timsalında qəhrəman övladlar tərbiyə edən analara ithaf olunub.

*Bütün sədlər keçən oğullar*
*Qayalardan quştək süzən oğullar.*
*Düşməni ot kimi biçən oğullar,*
*Şəhidlik şərbəti içən oğullar.*

Qalya xanım "Şəhidlər"ə hörmət və ehtiramını belə ifadə edir: "Şəhidi çox olan,torpağı, daşı şəhid qanına bələnən bir məmləkət var bu dünyada. Onun adı Azərbaycandır. Onlar ölmürlər! Millətə, xalqa, şərəf, şan, baş ucalığı gətirən, namusumuzu, isMətimizi qoruyan şəhidlərimiz!Sizi heç vaxt unutmayacağıq!"

*Haqq yolunda çarpışıb cihad edərək,*
*Ölməzlik şərbəti içdi şəhidlər.*
*Bir mələk cildində uçdu göylərə,*
*Sevən könüllərə köçdü şəhidlər.*

Tarix yazan,ömürlərdən Vətənə pay verən, ürəklərə köcən şəhidlərimiz Allahın dərgahına qovuşdular. Cənnət məkan olsunlar.

Fikirlərimizi Tahir İmanovun mülahizələri ilə yekunlaşdırmaq istəyirəm:"Azəri Soy! Gözəl müəllimə,saf təmiz, həqiqətən millətini sevən, şağırdlərinə də uzun illər bunu aşılayan Azərbaycanın Vətənpərvər ziyalısışair ruhlu ürəyinin yonqrını poeziyaya bağlayan şairəmiz! Qəlbinizə bələdik. Arzu edərdik ki, elə çoxları da sizə bənzəsin. Şəhidlərin pak ruhlarına layiq dəyərli müdrik insanımızsız. Qalya xanım, bəli, hamımız üçün yaşamaga dəyər. Mən səni kəşf etdim sən həqiqətən kəşf edilməli insansan. Və ilk olaraq özünü kəşf etmisən,sonra biz ;- insanlığını və vətənsevərliyini, duygusallığını, intellekt və savadını, həqiqi peşəkar müəllimliyini, ailəcanlı olmagını, humanistliyini və dosta sadaqətliliyini kəşf etmişik, yaxşı ki səni tanımışıq, bu bizə dəyər. Sənin kim dostla nə yaxşı ki bu dünyada varıq. Ən əsası, sənin ürəyindən süzülüb gələn çox böyük mətləbləri,zövqü bizə aşılamaq üçün qələmə aldıgın poeziya nümunələrini yaxşı ki, tanıdıq. O şeirlərdə o qədər səmimisən ki, misralar arasından elə ilk andaca tanınırsan,-bunu hamımız bilirik. Ürəyinə saglıq. Diqqətinə görə var ol. Balalarına çəkdiyin əziyyətlərə görə tanrı daim onların xoş xəbərləri ilə səni mükafatlandırsın".

Xanım- Xatın Şairəmiz! Sözü ilə əməli bir olan insan. Qibtə ediləcək tərzdə də istedadlıdır. Bu istedadla da böyük məhəbbət qazanmışdır. Belə bir tale səadətdir. Bu cür insanlar xoşbəxt və bəxtiyardır. Hər çiçəyindən bir ləçək dərdim. Cəsarətli və düşündürücü qələminin gücünü gördüm. İntuisiya qabiliyyətinə, davranışına, ünsiyyətdə hörmətə xüsusi diqqət yetirir. Məzun-78 qrupunun şairə qızı əsl Azərbaycan xanımlarına məxsus keyfiyyətləri özündə cəmləşdirən Qalya Quliyeva. Sizə yaradıcılıq üfiqləri diləyirəm. Zövqünüz təzələnsin. Qələminiz daim parlasın. Sənət yolunuz açıq və işıqlı olsun. Yeni kitablarınızla görüşənədək "Göy adamı" Azəri Soy!

***Həyat RÜSTƏMZADƏ***